Ədalət.-2016.-24 noyabr.-S.4.



# Qan pulu

(Hekayə)

Şirxan Aranlı

Kərəm müəllim metrodan çıxıb taksi dayanacağına yaxınlaşdı. Vaxtı az olduğundan gecikə bilərdi. Odur ki, taksi ilə getməyi qərara aldı. Əslində cibində olan pulu ona taksi ilə getməyə o qədər də imkan vermirdi. Ancaq məcbur idi, başqa çıxış yolu yox idi. Aylarla əsir olub dalınca süründüyü və buna görə döymədiyi qapı qalmadığı bir işin düzəlməsi üçün işıq ucu görünürdü.

Sıra ilə düzülmüş taksilərdən birinə yaxınlaşdı. Sükan arxasında nurani görkəmdə, ancaq üz-gözünü tük basmış orta yaşlı bir kişi əyləşmişdi. Ona müraciət edib soruşdu:

-Qardaş Qoşa qala qapısına neçəyə gedərsən?

-Səkkiz manat ver gedək.

Kərəm müəllim bir qədər duruxdu: Maşının içərisi bir qədər natəmiz olduğundan oturmağa tərəddüd etdi.

Orta yaşlı sürücü bayaqdan səbirsizliklə gözlədiyi, indi göydəndüşmə olan müştərini itirəcəkmiş kimi tez:

-Qardaş, əyləş gedək, yeddi manat verərsən. And olsun Allaha o qiymətə heç kəs getməz.

-Nə deyirəm.

Kərəm müəllim qapını açıb sürücünün yanında oturdu. Onun oturması ilə maşının sivrilib yola düşməsi bir oldu. Yolboyu dayanacaqlarda avtobus gözləyən adamları gördükcə Kərəm müəllim özünü daha rahat hiss edirdi. Çoxdan idi ki, belə rahat taksidə yol getməmişdi. Daha doğrusu axırıncı dəfə getdiyi heç yadına düşmürdü.

Yolboyu heç biri dinib danışmırdı. Hər biri öz daxili aləmində idi.

Qocalar demiş, həmişə qəpiyi-qəpik üstünə qoyub qənaətcil ömür yaşayan Kərəm müəllim fikirləşirdi ki, taksi ilə getməkdə kaş Allah eləyəydi işi düzələydi, əziyyəti, xərci hədər getməyəydi. Neçə ay idi ki, bu günü səbirsizliklə gözləyirdi. İşə girmək üçün göstərdiyi cəhdlər, bir neçəsinin də verdiyi vədlər indi deyəsən reallığa çevrilirdi. Dostu Nadir kişinin dediyi sözlər qulaqlarında cingildəyirdi: "Gümanzadə qəti tapşırıb, saat üç tamamda yanında olmalısan. Qısa iş günü olduğundan işdən tez çıxıb birbaş evinə gedəcək. Ona elə əsl sənin kimi iqtisadçı lazımdır: Əli düz, tamahıda özündə!"

Kərəm müəllim ixtisasca iqtisadçı olsa da lap cavan yaşlarından iş yerində ağıryana hərəkəti, yüksək etik davranışı ilə özünü həmişə müəllim kimi apardığından elə hamı ona "Kərəm müəllim" deyə müraciət edirdi. Yayın isti günündə də başından şlyapası, boğazından qalstuku əksik olmazdı. Oturuşuda-duruşuda əsl müəllim idi. Və həmişə müəllim deyə çağrılanda ona xüsusi ləzzət verirdi. Vaxt vardı onun kimi səriştəli, təmiz vicdanlı iqtisadçını əl-əl axtarırdılar, indi o, qapı-qapı düşüb iş axtarırdı. Nə isə....

Üz-gözünü tük basmış taksi sürücüsü də öz aləmində idi. Heç dinib danışmırdı. Elə bil dünyanın borcu-xərcini ondan almışdılar. Arada siqaret yandırmaq istədi, lakin nə fikirləşdisə tezcə də onu qaytarıb qutusuna qoydu. Bir qədər keçmiş yenidən siqareti qutudan çıxarıb yandırası oldu.

Üzürxahlıqla yanındakı sərnişinə:

-Qardaş, sən Allah bağışla, bir siqaret yandırım.

-Buyurun, buyurun, - Kərəm müəllim razılığını bildirdi. Orta yaşlı sürücü elə buna bənd imiş kimi cəld qutudan siqareti çəkib yandırmağı ilə acı tüstünü sinəsinə sümürməyi bir oldu. Ancaq bir-iki qüllab vurduqdan sonra bayıra atıb maşının şüşəsini qaldırdı. Birdən üzbəüz gələn və həyəcan işıqlarını yandıran təcili yardım maşını yüksək sürətlə şütüyüb onların yanından keçdi. Maşının ötüb keçməsi ilə taksi sürücüsünün sonsuz həyəcanla:

-Allah sən saxla, Allah sən saxla, - deməsi bir oldu.

Və sonra öz-özünə "Xudaya, sən özün kömək ol", - dedi.

Kərəm müəllim bayaqdan yanaşı oturduğu sürücünün dəfələrlə ah çəkməsindən, siqaretin acı tüstüsünü sinəsinə sümürməsindən, indi də dediyi bu kəlmələrdən onun dərdli adam olmasını indi hiss etdi. Laqeyd qala bilməyib canıyananlıqla soruşdu:

-Qardaş, fikir verirəm, nə isə dərdli adama oxşayırsan...

Təmkinli sürücü açıb-ağartmadan üstən ötüb keçməyə çalışdı.

-Heç ay qardaş, hər kəsin özünə görə bir dərd-səri var.

Kərəm müəllim qayğılandı:

-Qardaş sirr deyilsə, bəlkə...

-Nə sirr olacaq, deyib qanını qaraltmaq istəmirəm.

-Elə demə qardaş, hamı bir-birinə həyan olmalıdı. Bəs nə üçün yaşayırıq...

Dərdli sürücü əslində insan qayğısına, bir quru təsəlliverici sözə də möhtac idi. Odur ki, dərdini danışdı...

- Qardaş, Allah mənim çəkdiklərimi heç kəsin başına gətirməsin. Oğlumun hərbi xidmətdən qurtarıb gəlməsinə bir ay qalmışdı. Qəfil xəbər gəldi ki, döyüşdə yaralanıb. Başılovlu tez yanına getdim. Dedilər hərbi qospitaldadı. Gedib gördüm. Doğurdan da başından yaralanmışdı. Müalicə olunurdu. Reanimatsiya şöbəsində olduğundan görüş zamanı həkimlər oğlumla danışmağa icazə vermədi. Komandir isə bildirdi ki, təlim zamanı maşından yıxılıb, başı daşa dəyib yaralanıb. Lakin oğlum bir qədər yaxşılaşandan sonra dedi ki, gecə növbəsində başqasının yerinə naryada getmədiyim üçün starşina başıma küt alətlə vurub yardı. Bir neçə gün onun yanında qaldım. Hərbi xidmət dövrü başa çatdığı üçün həkimlər onu tam sağalmamış qospitaldan çıxarıb evə buraxdılar. Özümlə bərabər götürüb evə gəldim. Bir neçə gündən sonra oğlumun vəziyyəti qəfildən ağırlaşdı. Xəstəxanaya apardım. Məlum oldu ki, aldığı zərbədən beyin pərdəsinə toplaşan qan orada laxtalanıb. Təcili əməliyyat olunmasa ölümlə üzləşə bilər. Əməliyyat olunması üçün isə cərrah düz beş min manat pul istədi. Evdə gümanım aldığım pensiyadan başqa heç nəyə çatmırdı. Nə qədər yalvar-yaxar edəndən sonra həkim dediyi məbləğdən cəmi beş yüz manat aşağı düşdü. Yaxın qohum-əqrəba toplaşıb birtəhər həmin məbləği düzəltdik. Evimizdə daha pula gedən bir şey qalmadı, pula gedən nə vardısa satdıq.

İki gündü uşaq əməliyyat olunub, reanimatsiya otağındadır. İndi də xəstəxanadan zəng ediblər ki, uşağın vəziyyəti yaxşı deyil, təcili dəva-dərman olunmalıdır, tez al gətir. Qiymətini soruşdum, dedilər ki, təxminən otuz manat olar. Çəkdiyim siqareti səhər borc almışam. Bir saata qədərdi gözləyirəm. Birinci müştərimdə sizsiniz, hələ bir qəpik qazanmamışam. Üstümdə də bir manat yoxdur ki, gedib dərman alım. Növbə yoldaşımdan xahiş etdim ki, gəl sən maşını sür, axşam plan verməliyik, mən görüm başıma nə çarə qılıram. Dedi pulum yoxdur, maşına benzin tök gələrəm. Odur ki, səhər olub-qalanımı verib maşına benzin tökmüşəm.

Əsəbi gərginlikdən dodaqlarını çeynəyən Kərəm müəllim sonsuz qayğı ilə soruşdu:

-Qardaş, indi neyləmək fikirindəsən?

-Bircə çıxış yolum var: daha kimdənsə gedib borc almağa üzüm gəlmir. Əslində heç verən də yoxdur. Maşını təhvil verim, tez gedib qan götürülən yerdə qanımı verəcəm ki, təcili otuz manat düzəldib, dəva-dərman alıb uşağa çatdırım. Daha gözüm görə-görə...

Yazıq kişinin gözləri doldu. Sözünün ardını deyə bilmədi. Kərəm müəllim də kövrəlmişdi. İki il əvvəl özünün də başına gələn hadisə yadına düşdü: Kəskin korbağırsaq ağrısından gecə ilə əməliyyat olundu. İmkanı çatan miqdarda həkimə hörmət etmək istəsə də, cavan həkim ondan heç nə almadı. "Həkimlik borcumu yerinə yetirmişəm" dedi. Bu həkim isə hətta xəstənin vətənə hərbi xidmət zamanı yaralandığını belə nəzərə almadan gündəlik çörək puluna işləyən sadə sürücüdən utanmadan bu qədər rüşvət tələb edib alırdı. Mənzil başına yaxınlaşdılar. Kərəm müəllimin beynində narahat fikirlər bir-birini təqib edirdi. Özlüyündə cibində olan pulları hesabladı. Deyəsən hesab düzəlirdi.

-Çatdıq qardaş, - deyib maşını saxlatdı.

Cibindən pulları çıxarıb sayaraq otuz manat pulu oturacağın üstünə qoydu.

İmkansız sürücünün heyrətdən gözləri böyüdü.

-Axı yeddi manat verməlisən qardaş, bu çoxdur. Artıq pullarını götür.

-Bu qan puludur, təmiz qanını satma, hələ sənə çox lazım olacaq, gəl qan qardaşı olaq.

Kərəm müəllimin beynindən qeyri-ixtiyari bir fikir keçdi:

Dünyanın işinə bax: Kimi insafını satır, kimi qanını.

Hər ikisi kövrəlib bir-birinə sarıldı. Kərəm müəllimin qolları saç-saqqalı cod tük meşəsinə dönmüş zavallı sürücünün boynuna dolandı. Ayrılıb maşından düşəndə hələ də heyrətdən özünə gəlməyən sürücü soruşdu:

-Qardaş, adını, ünvanını xahiş edirəm de.

-Qan qardaşından ad, ünvan soruşmazlar. Tanrı köməyin olsun. Tez dərmanları al, get xəstənin dalınca.

Hələ də özünə gəlməyən sürücü heyrətlə Kərəm müəllimin arxasınca baxaraq dodaqaltı öz-özünə:

-Yaxşıları yaxşı qoru xudaya. Nə yaxşı ki, dünya yaxşılardan xali deyilmiş...